*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

11 fevral 2022-ci il
№06 (8964)

www.muallim.edu.az
muallim@edu.gov.az



# Təhsilə ictimai baxış

## Təhsil Nazirliyi yanında İctimai Şura təlim və tərbiyə məsələlərinə həsr olunmuş ilk müzakirələrini keçirib

Təhsil sahəsində ən mühüm qərarlar yalnız ciddi təhlil və müzakirələrdən sonra tətbiqi əhəmiyyət qazanır. Son dövrlər təhsil sahəsində baş verənlər də bu strateji sahəyə fokuslanmağımızı və ciddi qərarların qəbulunu şərtləndirmişdir. Bu zərurəti qiymətləndirmək üçün Təhsil Nazirliyi yanında İctimai Şura "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə "Təhsilə ictimai baxış" silsilə müzakirələrə start verib. Fevralın 4-də keçirilən ilk müzakirələr məktəb sistemində olduqca vacib mövzuya - təlim və tərbiyə məsələlərinə həsr olunub. İlk müzakirələrdə Təhsil Nazirliyinin əməkdaşları, İctimai Şuranın üzvləri, təhsil ekspertləri, məktəb direktorları, valideyn və müəllimlər, ictimaiyyət nümayəndələri iştirak ediblər. İctimai Şuranın cari təqvim ilində ilk olaraq müasir çağırışlar dönəmində təhsilimiz üçün mühüm əhəmiyyət daşıyan təlim və tərbiyə məsələsini müzakirəyə çıxarmasını qurum üçün uğurlu fəaliyyətin başlanğıcı hesab etmək olar.

Ardı səh.3

## BU SAYIMIZDA

### "Teknofest Azərbaycan"



"Teknofest Azərbaycan" tədbiri çərçivəsində keçirilən "Baku Skills" kateqoriyası üzrə müsabiqə Təhsil Nazirliyinin və Təhsil İnstitutunun (ARTİ) dəstəyi ilə "STEAM Azərbaycan" layihəsi tərəfindən təşkil olunur. "Baku Skills" müsabiqəsi iştirakçıların 3D çap texnologiyasında istifadə bacarıqlarının təkmilləşdirilməsini hədəfləyir.

səh.2

### Tələbələr üçün "Qış düşərgəsi"



Fevralın 5-də Təhsil İnstitutunun təşkilatçılığı ilə Quba rayonunda tələbələrin qış düşərgəsinin (Winter bootcamp) açılış mərasimi baş tutub. Düşərgənin keçirilməsində məqsəd tələbələr arasında ali riyaziyyat sahəsinə olan marağın artırılması, riyaziyyatın yeni texnologiyalar və süni intellekt sahəsində tətbiqi dairəsinə dair məlumatların verilməsi və qış tətili dövründə tələbələrin riyazi biliklərinin gücləndirilməsidir.

səh.4

### Meqapolislər olimpiadası



Milli komandamız tərəfindən Meqapolislər olimpiadasında 2017-2018-ci tədris ilində 1 qızıl, 4 bürünc, 2018-2019-cu tədris ilində 1 qızıl, 1 gümüş, 2 bürünc medal, 2019-2020-ci tədris ilində 4 gümüş, 1 bürünc, 2020-ci ildə 2 gümüş, 5 bürünc, 2021-ci ildə isə 1 gümüş və 4 bürünc medal olmaqla, ümumilikdə 2 qızıl, 8 gümüş və 16 bürünc medal qazanılıb.

səh.5



# Təhsildə bərabərlik

İndiyədək 2000-ə yaxın tələbənin təhsil krediti üçün müraciəti rəsmiləşdirilib və onların təhsil haqqı oxuduqları universitetlərə ödənilib. 1200 müraciət emal prosesindədir və yaxın iki həftə ərzində rəsmiləşdiriləcək. Təxminən 300-400 tələbə müraciətini tamamlamayıb.

Bu barədə Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri Araz Paşayev məlumat verib. O, 2021-2022-ci tədris ilinin birinci semestri üçün elan olunan təhsil tələbə kreditinin başa çatması ərəfəsində etdiyi təqdimatda Fondun yaradılmasından ötən 2 ay ərzində qət edilən yola nəzər salıb.

Xatırladaq ki, 2021-2022-ci tədris ilinin payız semestri üzrə təhsil tələbə krediti almaq üçün müraciətlərin qəbuluna 2021-ci il noyabrın 25-də başlanılıb. Proses 2022-ci il fevralın 15-də yekunlaşacaq. Fevralın 16-dan isə 2021-2022-ci tədris ilinin yaz semestri üçün təhsil tələbə kreditinə müraciətlərin qəbuluna start veriləcək.

Ardı səh.4

# Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139, № 12 (I kitab), maddə 1469; 2021, № 2, maddə 124; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 dekabr tarixli 1500 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.4-2-ci bəndində "xüsusi vəsaitin" sözləri "vəsaitin, habelə tabeliyindəki təhsil müəssisələrinin göstərdiyi ödənişli təhsil xidmətlərindən əldə olunan gəlirlərin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 9 fevral 2022-ci il*



# "Teknofest Azərbaycan"






## Aerokosmik və Texnologiya Festivalı ilə bağlı mətbuat konfransı keçirilib

Fevralın 7-də "Teknofest Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı ilə bağlı mətbuat konfransı keçirilib.

Mətbuat konfransında rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Türkiye Teknoloji Takımı Vakfının (T3 Vakfı) rəhbəri Selçuk Bayraktar iştirak edib.

Konfransda media nümayəndələrinin diqqətinə çatdırılıb ki, 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı Bulvar ərazisində keçiriləcək festival çərçivəsində yarışlar "Robotexnika", "Yaşıl texnologiyalar (GreenTech)", "Aqrar texnologiyalar (AgriTech)", "Pilotsuz uçuş aparatları (PUA)", "Həvəskar peyk modelləşdirilməsi", "Sosial yönümlü texnologiyalar", "Smart Qarabağ" Hakatonu, "Sailplaner", "Baku Skills", "Rocket League" oyunu üzrə Avropa kuboku daxil olmaqla 10 müsabiqə üzrə keçiriləcək.

Müsabiqələrə qoşulmaq üçün *"teknofest.az"* saytı üzərindən qeydiyyatdan keçmək lazımdır. Hər kateqoriya üzrə 1-ci, 2-ci və 3-cü yerin sahibləri üçün diplom və pul mükafatları nəzərdə tutulub.

Qeyd edək ki, "Teknofest Azərbaycan" tədbiri çərçivəsində keçirilən "Baku Skills" kateqoriyası üzrə müsabiqə Təhsil Nazirliyinin və Təhsil İnstitutunun (ARTİ) dəstəyi ilə "STEAM Azərbaycan" layihəsi tərəfindən təşkil olunur. "Baku Skills" müsabiqəsi iştirakçıların 3D çap texnologiyasında istifadə bacarıqlarının təkmilləşdirilməsini hədəfləyir. Sözügedən yarışmada 3D modelləşdirmə və çap sahəsində marağı və biliyi olan bütün tələbələr iştirak edə bilər. "Baku Skills" (3D modelləşmə, 3D çap) kateqoriyası üzrə yarışmada iştirak hüququ qazanmış komandalar üçün lazımi avadanlıq və ləvazimat təchizatı Təhsil Nazirliyi tərəfindən həyata keçiriləcək.

# Yanvar ayında 336 nəfərin diplomu tanınıb

Təhsildə Keyfiyyət Təminatı Agentliyi yanvar ayı üçün diplomların tanınması üzrə statistikanı açıqlayıb. Belə ki, yanvar ayında 431 müraciətçinin 336-sı barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 95 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 55, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 18, təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 9, digər səbəblər üzrə 13 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 115, Rusiyadan 115, Ukraynadan 109, Gürcüstandan 18, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 11, digər ölkələrdən isə 63 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, hüquqşünaslıq üzrə 69, iqtisadiyyat üzrə 30, tibb üzrə 29, biznesin idarə edilməsi üzrə 20, stomatologiya üzrə 17 nəfər müraciətçi qeydə alınıb.

Qeyd edək ki, sənədlərə ortalama baxılma müddəti 25 gün təşkil edib. Əlavə olaraq bildiririk ki, vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün *www.tanınma.az* keçidinə daxil ola bilərlər.

# 4 peşə ixtisası üzrə təhsil proqramları hazırlanır

"Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair Protokol" çərçivəsində Türkiyə Peşə Təhsili Baş İdarəsi ilə Peşə Təhsili üzrə Dövlət Agentliyi arasında növbəti onlayn görüş keçirilib.

Görüş çərçivəsində imzalanmış protokola uyğun olaraq, 4 ixtisas üzrə təhsil proqramları və planlarının hazırlanması müzakirə edilib.

Belə ki, birgə əməkdaşlıq çərçivəsində mebel sənayesi, turizm və ictimai iaşə, həmçinin İKT sahəsini əhatə edən 4 ixtisas üzrə tədrisin təşkili nəzərdə tutulur. Bundan əlavə, Türkiyə təcrübəsinə əsaslanan təhsil planlarının yerli şəraitə uyğunlaşdırılması üzrə işlərə başlanılıb.

Protokol çərçivəsində hazırlanacaq 4 ixtisas üzrə təhsil proqramlarının Bakı və Qəbələ şəhərində yerləşən peşə təhsili müəssisələrində tətbiqi gözlənilir.

Qeyd edək ki, sözügedən protokol iki ölkə arasında peşə təhsili sahəsində əməkdaşlığın genişləndirilməsini və müvafiq istiqamət üzrə Türkiyə təcrübəsinin öyrənilməsini özündə ehtiva edir.

# Təhsilə ictimai baxış

## Təhsil Nazirliyi yanında İctimai Şura təlim və tərbiyə məsələlərinə həsr olunmuş ilk müzakirələrini keçirib

⇦ Əvvəli səh.1

### "Daha çox təlim-tərbiyə məsələlərinə fokuslanmalıyıq"

İctimai Şuranın sədri Günel Səfərova tədbirin açılışında qeyd edib ki, təhsil ictimiyyəti ilə ilk görüşdə son günlər məktəblərdə baş verən hadisələrin səbəbləri diqqətdə olacaq. Eyni zamanda digər ictimai görüşlərin mövzuları ictimaiyyət nümayəndələri ilə birlikdə müəyyən olunacaq.

G.Səfərova İctimai Şura barədə məlumat verərək qeyd edib ki, bu qurum 9 qeyri- hökumət təşkilatının nümayəndələrindən ibarətdir. İctimai Şura yeni tərkibdə 2 aydır ki, fəaliyyətə başlamasına baxmayaraq, artıq bir sıra işlər görülüb. Şuranın Fəaliyyət Planı hazırlanıb və təkliflərdən asılı olaraq bu planda müəyyən dəyişikliklər edilə bilər. İctimai nəzarət funksiyasını həyata keçirməkdə ictimaiyyətin, təhsil ekspertlərinin dəstəyinə ehtiyacın olduğunu deyən G.Səfərova hesab edir ki, bu gün elə bir məsələ yoxdur ki, biz onu təklikdə həll edə bilək. "Biz birlikdə bu məsələləri müəyyən edib, ilk növbədə, onların həlli yollarını tapmağa çalışacağıq. Xüsusilə Təhsil Nazirliyinə təşəkkür edirəm ki, İctimai Şura olaraq bizim verdiyimiz bütün təkliflərdə bizə dəstək göstərib. Təhsil bir strukturun, bir idarənin işi deyil, ümumilikdə hamımızın birgə işidir. Və bu gün biz daha çox məktəblərdə təlim-tərbiyə məsələlərinə fokuslanmalıyıq".

G.Səfərova şagird-məktəb münasibətlərinə dair cənab nazirin iştirakı ilə növbəti müzakirənin təşkil olunacağını, bu məsələlərə bağlı İctimai Şuranın tərkibində işçi qrupun formalaşdığını bildirib.

### Tədrisin keyfiyyətinin yüksəldilməsi

Təhsilimiz üçün çox vacib bir müzakirənin başlanması təşəbbüsünə görə İctimai Şuraya təşəkkürlərini çatdıran Təhsil Nazirliyinin Ümumi təhsilin təşkili və idarəolunması şöbəsinin müdiri Elnur Əliyev "Məktəblərdə keyfiyyət monitorinqi-2021 nəticələrinin təhlilində müəllim-şagird münasibətləri və "bullinq" adlı təqdimatla çıxış edib. Şöbə müdiri təqdimatında təhsil naziri Emin Əmrullayevin müvafiq əmri ilə məktəblərdə təhsilin, tədris və idarəetmə prosesinin keyfiyyətinin ölçülməsi məqsədilə keçirilən monitorinqlərin nəticələrinə toxunub.

E.Əliyev bildirib ki, monitorinqlərlə bağlı beynəlxalq təlimlər təşkil olunub, xarici ekspertlər dəvət edilib. Bir çox dünya ölkələrinin təcrübəsi araşdırılıb və yüksək təcrübəsi olan pedaqoqlardan və qabaqcıl məktəb direktorlarından ibarət nümunəvi komanda formalaşdırılıb. Yeni yanaşma əsasında 2021-ci təqvim ili ərzində 100 məktəb monitorinqə cəlb olunub. Monitorinq gedişində 4-5 mütəxəssis 2-3 gün ərzində məktəbdə 4 sahəni qiymətləndirib. Tədris prosesini qiymətləndirməyə, öyrənmə-öyrətmə prosesini, məktəb mühitini, başqa sözlə, məktəbdəki münasibətləri (şagird-valideyn, məktəb-şagird, müəllim-şagird, rəhbərlik-müəllim) araşdırmağa, eləcə də məktəbdəki infrastrukturun təlim-tərbiyənin keyfiyyətli təşkili üçün nə qədər uyğun olduğunu müəyyən etməyə çalışıb. 4 sahə - şagirdlər, müəllimlər, qiymətləndirmə, idarəetmə və məktəb mühiti ilə bağlı hər bir məktəb üzrə ətraflı hesabat hazırlanıb. Təxminən hər məktəbdə 30-40 dərs dinlənilib. Məktəbdə şagird və müəllimlər, idarə heyətinin üzvləri müsahibə olunub, həmçinin bütün 7, 8, 9-cu sinif şagirdləri, onların valideynləri və məktəb müəllimlərinə sms vasitəsi ilə məktəbdəki bu münasibətlərə dair suallara cavab verməleri üçün anonim sorğu göndərilib. Təhlil çox böyük olduğu üçün onun yalnız bir hissəsi ictimaiyyətlə müzakirəyə təqdim olunur.

### Şagird-müəllim münasibətləri

Monitorinqin nəticələri barədə danışan E.Əliyev tədqiqat gedişində ölkə üzrə təxminən 11 minə yaxın şagirdə və valideynə, təxminən 3 minə yaxın müəllimə sorğu göndərildiyini bildirib. Şöbə müdirinin sözlərinə əsasən, sorğuya reaksiyalar qaneedici olmayıb, yəni 50 faiz respondent sorğuya cavab verməyib. Tədqiqatda təxminən 5-6 min şagird, bir o qədər müəllim və təxminən 1500-ə qədər valideynin cavabları əks olunub. "Şagird-müəllim" münasibətləri ilə bağlı sorğuda iştirak edən şagirdlərin təxminən 86, müəllimlərin isə 71 faizi müəllim-şagird münasibətlərini əhatə edən suallara ümumilikdə müsbət cavab veriblər.

E.Əliyev qeyd edir ki, sorğuda iştirak edənlərin 29 faizi bu münasibətlərin yaxşı olmadığını deyirsə, bu, kifayət qədər narahatedici məqamdır.

Opponentlərə məktəbdə bullinqin baş verməsi ilə bağlı da müxtəlif suallar ünvanlanıb. Rəyi soruşulanların 80 faizi belə hesab edir ki, məktəblərdə belə hallar yaşanmır. 20 faiz isə bunun olduğunu düşünür. Burada həm valideynlərin, həm də müəllimlərin cavabları öz əksini tapıb.

### Məktəb şagird üçün nə dərəcədə maraqlıdır...

Şöbə müdiri hesab edir ki, "məktəbin şagird üçün maraqlı olması" barədə sorğu təlim-tərbiyə prosesi ilə əlaqəli olmasa da, müzakirə üçün yaxşı bir imkan verir. Əsasən şagirdlərin böyük hissəsi məktəbin onun üçün maraqlı olduğunu düşünür. Təxminən 15 faiz şagirdin bu suala mənfi cavab verməsi isə narahatedicidir. "Müəllimlər şagirdlərlə hörmətlə davranırlar" sualına verilən cavaba gəlincə, E.Əliyev qeyd edir ki, "təbii ki, biz belə hesab edirik ki, müəllimlərimiz hər zaman şagirdlərlə hörmətlə davranmalıdır, ancaq şagirdlər bəzən bu cür də düşünə bilirlər: onların təxminən 15 faizi müəllimlərin onlarla heç "vaxt" və ya "nadir hallarda" belə davrandığını bildirir".

"Mən dərslə bağlı nəsə demək istədikdə müəllimlər məni dinləyirlər". Bu suala şagirdlər "həmişə" və "çox vaxt" cavabı veriblər. "Şagirdlərin böyük hissəsi bu suallara müsbət cavab versə də, mənfi cavab verən kiçik hissə bizi narahat etməlidir. Demək ki, biz hələlik istəyimizə tam nail ola bilməmişik, müəllimlərlə işləmək vacib missiyamız davam etməlidir".

Bu rəqəmlər, nəticələr gələcəkdə təhsillə bağlı qərarlar verilərkən bizə kömək edəcək. Bu nəticələrdən gələcək məktəb fəaliyyətləri, təlim-tərbiyənin mövzusu və s. kimi vacib məsələlərlə bağlı qərarların verilməsində istifadə olunacaq.

### Məsələyə obyektiv yanaşma

"Bullinq (təhqiretmə, əlaldırma, təkləmək və s. hallar) baş verirmi" sualını şagirdlərin 19 faizi "bəli", 7 faiz "bəzən", 44 faiz "heç vaxt baş vermir", 6 faiz "həmişə", 25 faiz "nadir hallarda baş verir" kimi cavablandırıblar. E.Əliyev qeyd edib ki, burada bizi narahat edən 6 və 7 faizdir. 13 faiz hesab edir ki, onların məktəbində belə hallar baş vermir. Nəzərə alsaq ki, burada 5 min şagirdin rəyi götürülüb, bunların demək olar ki, minə yaxını - 700-800 nəfər belə halların baş verdiyini bildirib. "Bu, öz-özlüyündə bizi narahat edir. Yəni, biz məsələyə obyektiv yanaşırıq, yalnız müsbət məqamları qabartmaq istəmirik. Az bir hissə bunun baş verdiyini deyirsə, bu, bizi narahat edir. Biz buna reaksiya verməliyik ki, onu necə aradan qaldıra bilərik".

Başqa bir məsələ şagirdlərin psixoloji vəziyyəti ilə bağlıdır. Bu məsələ üzrə ciddi müzakirələr aparılır. "Sinif rəhbəri, müəllimlərlə və psixoloqlar problemlərimizi dinləyir, problemin həllinə yardım edir" -bu sorğuya 9 faiz "bəzən", 22 faiz "çox vaxt", 4 faiz "heç vaxt", 61 faiz" "həmişə", 4 faiz "nadir hallarda" kimi cavab veriblər.

Beləliklə, 5 min şagirddən təxminən 800-900-ü belə problemlərlə rastlaşdıqda yardım alacaqları şəxslərin olmadığını deyirlər. Şagirdlərə "Məktəbdə narahat edən məsələ ilə bağlı kiməsə yaxınlaşa biləcəyin şəxslər varmı " kimi sual verildikdə onların 14 faizi deyir ki, "yoxdur". Bu da həll olunmalı məsələdir. Bu, bəzi məktəblərdə düzgün kommunikasiya olunmadığından baş verir".

"Müəllimlər övladıma lazımı diqqət və qayğı göstərirlər" sualına valideynlərin əksəriyyəti müsbət cavab versə də, burada təxminən 20 faiz belə olmadığını düşünür.

E.Əliyev qeyd edib ki, bizə həqiqətən başa düşmək istəyirik ki, reallıqda bizim valideynlər məktəb barədə nə düşünürlər. "Müəllimlər şagirdlərə xoş münasibət bəsləyirlər" - burada rəqəmlər xoş görünsə də, yəni 80 faiz bunun belə olduğunu düşünsə də 19 faiz belə olmadığını deyir və bu da düşündürücüdür.

"Şagirdlər bir-biriləri ilə hörmətlə rəftar edirlər" sualına da "çox vaxt", "həmişə" kimi cavablar alınıb. 75 faiz müsbət düşünsə də, 25 faiz hesab edir ki, şagirdlər həmişə mehriban deyillər. "Məktəbdə şagirdlər arasında bullinq halları baş verirmi" sualına müəllimlərin 87 faizi "heç vaxt" və "nadir hallarda" kimi cavab versələr də, çox kiçik hissəsi bu halların şahidi olduğunu bildirib.

### Sinfin idarə olunmasına dair təlimlər keçiriləcək

Müşahidə və müsahibələrin nəticələrinin təhlilindən danışan şöbə müdiri 150-ə yaxın dərsdinləmələrində iştirak etdiyini bildirərək qeyd edib ki, bəzən məktəblərimizdə hər hansı hərəkətin bullinq olduğunu bilmirlər. Bəzən bullinqin mahiyyətinə varmadan, bilmədən buna yol verilir, yəni, uşaqlar bilmirlər ki, bunu etmək olmaz. O, bullinqlə bağlı maariflədirmə işlərinin aparılması zəruriliyini də qeyd edib.

E.Əliyev daha bir vacib məqama toxunub: "Bəzi gənc təhsilverənlər müəllimlərin işə qəbul imtahanlarında yüksək ballar toplayaraq məktəblərə qəbul olunsalar da pedaqoji iş təcrübələri olmadığından sinfin idarə olunmasında problem yaşayırlar. Sinfin idarə olunması problemi olduğundan bu, onların məktəbdəki gələcək işini çətinə salır. Biz düşünürük ki, il ərzində müəllim təlimlərinin böyük qismi gənc müəllimin sinfin idarə olunmasına yönəlsin. Yəni, qarşıdakı ildə mühüm vəzifələrdən biri bu olacaq ki, 2022-ci tədris ilində müəllimlərin işə qəbulu imtahanından uğurla keçən müəllimlərə sentyabrın 15-ə qədər sinfin idarə olunması ilə bağlı ayrıca bir təlim verək".

### Şagirdlərin nümunəvi davranış qaydaları hazırlanacaq

Şöbə müdiri məktəblərdə şagird davranış qaydaları və bu qaydaların kommunikasiyası barədə də danışıb. Dünya təcrübəsi də göstərir ki, məktəblərdə sinfin idarə olunmasının ən vacib yolu davranış qaydalarının olması və ilin əvvəlindən düzgün kommunikasiya edilməsidir. Məktəblərdə şagird qaydaları ilin əvvəlində və şagirdlər üçün sadə olmalıdır. Deyək ki, 10 qayda olsa və bu qaydalar hamı ilə düzgün kommunikasiya olunsa, biz çox şeylərdən qaça bilərik.

E.Əliyev bildirib ki, nazirlik yeni 2022-2023-cü tədris ili başlayana qədər şagird davranış qaydalarının yenilənməsi ilə bağlı işlər görəcək. "Nümunəvi davranış qaydaları hazırlanacaq. Onun bütün məktəblərdə kommunikasiya olunması nəzərdə tutulur. Bunun hazırlanması və yenidən təkmilləşməsi prosesinə təhsil ictimaiyyətini, müəllimləri, məktəb rəhbərliyini cəlb etməyə qərar vermişik və hazırda yerlərdə məktəblərdə xüsusi işçi qruplar yaradılır. Onların təklifləri əsasında vahid şagird davranış qaydalarının, o cümlədən valideynlərlə ünsiyyətə dair yeni təlimatların hazırlanması nəzərdə tutulub".

Qeyd edilib ki, müəllim-şagird münasibətlərilə bağlı da mövcud qaydaların təkmilləşməsi qarşıya məqsəd qoyulub. Bu təhlilin nəticəsində nazirlik əldə edəcəyi qərarlar təqvim ili ərzində görüləcək işlərin yalnız bir istiqamətidir. Bu, şagird-məktəb, məktəb-valideyn, şagird-müəllim münasibətlərinin tənzimlənməsi mövzusunda fokuslandığımız istiqamətdir. "Təbii ki, gələcəkdə yenə də maraqlı olarsa, biz tədrislə, məktəbdaxili qiymətləndirmələr, idarəetmə ilə bağlı da müvafiq təhlillərin, müşahidə-sorğuların nəticələrini ictimaiyyətlə paylaşmağın tərəfdarıyıq. Biz son günlərdə baş verən hadisələrə ictimaiyyətin doğru yanaşmasının yaranmasında maraqlıyıq".

Təhsil nazirinin müşaviri Elnur Nəsibov qeyd edib ki, təqdimat Təhsil Nazirliyinin bu sahədə düşündüyü, vəziyyətin monitorinq edilməsi və nəticələrin çıxarılmasının göstəricisidir. "Bu, artıq çox gözəl bir mesajdır. Düşünürəm ki, bu, bir daha onu göstərir ki, təhsil yalnız nazirliyin, onun aparatının və tabe qurumların problemi və ya mövzusu deyil, bu, bizim cəmiyyətin mövzusudur. Burada toplaşmağımız təhsilalanlara biganə qalmadığımızın göstəricisidir. Bu gün bizim ilk görüşümüzdür, silsilə müzakirələrin başlanğıcıdır. Belə ki, ayda ən azı bir dəfə İctimai Şuranın dəstəyi ilə bu cür müzakirələr davam edəcək".

Daha sonra İctimai Şuranın üzvləri, təhsil tədqiqatçıları, ekspertlər, məktəb direktorları tərəfindən ölkəmizdə təhsilin inkişafı, məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsi, müasir çağırışlar dövründə baş qaldıran bir sıra qlobal problemlərlə bağlı təklif və tövsiyələrini səsləndirilib.



Oruc MUSTAFAYEV

# Təhsildə bərabərlik



## 2000-ə yaxın tələbənin təhsil haqqı oxuduğu universitetlərə ödənilib

⇦ Əvvəli səh.1

### Təhsil krediti almaq hüququna malik 60 minə yaxın tələbə var

Fond rəhbəri bildirib ki, ölkəmizdə fəaliyyət göstərən 44 ali təhsil müəssisəsi və 7 universitet filialında bakalavr, 55 orta ixtisas təhsili müəssisəsində orta ixtisas təhsili verilir. Həmin müəssisələrdə 266 mindən çox tələbə təhsil alır. Onlardan 246 min 162 nəfəri əyani oxuyur. Əyani təhsil alan tələbələrin 146 min 373 nəfəri ödənişli təhsil alır ki, onlar tələbələrin 59.5 faizini təşkil edir. Bakalavriat səviyyəsi üzrə 58.5, magistratura səviyyəsi üzrə 62.8 və subbakalavriat səviyyəsi üzrə 61faiz ödənişli təhsil alanlardır: "Azərbaycanda 15 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərindən 972 nəfəri ali, orta ixtisas və orta təhsilə malikdir. Əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayı 200 nəfərdir. Bu rəqəm orta ixtisas təhsili müəssisələrində 63 nəfərdir".

Ödənişli təhsil alan 20 min 200 tələbənin təhsil haqqını dövlət ödəyir. Onlar məcburi köçkün statuslu tələbələr, valideynlərini itirən və ya valideyn himayəsindən məhrum olanlar, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid və ya əlil olan şəxslərin uşaqları, özü I və ya II dərəcəli əlil olanlardır. Yerdə qalan 126 min 173 tələbə təhsil haqqını özü ödəyir. Ümumilikdə götürdükdə ödənişli təhsil alan 56 min 208 tələbənin təhsil tələbə krediti almaq hüququ var. Ancaq kredit şərtlərinə görə onların hamısı kredit ala bilmir. Belə ki, fondun vəsaiti hesabına verilən tələbə krediti üçün müəyyən tələblər var. Vəsait alan tələbə tədrisə tam cəlb olunaraq təhsil müəssisələrində əyani tədris almalı, hər tədris semestri üçün ayrıca müraciət etməli, hər semestr üzrə akademik borcu olmamalıdır.

### Təhsil tələbə krediti şərtlərində dəyişiklik edilə bilər

Təhsil Tələbə Krediti Fondunun İdarə Heyətinin sədri I kurs tələbələrinə təklif edilən kreditin şərtlərinə mümkün dəyişiklikdən də danışıb. O deyib ki, tələbə qəbulu imtahanında toplanan ümumi balın minimal həddi dəyişdirilə bilər. Onun sözlərinə görə, hazırda bununla bağlı müzakirələr və məsləhətləşmələr aparılır: "Bu, gələcəkdə müzakirə oluna biləcək mövzulardan biridir. Çünki kredit təhsil alan tələbələri deyil, eyni zamanda abituriyentləri də əhatə edir".

Qeyd edək ki, hazırda bakalavr səviyyəsi üzrə ödənişli təhsil alan tələbələr üçün həmin hədd 300-700, magistr səviyyəsi üzrə 50-100, subbakalavr səviyyəsi üzrə isə 110-300 bal müəyyən edilib.

Xatırladaq ki, kredit şərtlərinə görə, tələbədən və ya abituriyentdən götürdüyü kreditin müqabilində girov və zaminlik tələb olunmur. Borcalan ölüm və əlillik hallarından sığortalanır.

### Kredit: ya sosial, ya standart

Bundan sonra şərtlərə uyğun kredit müəyyənləşdirilir, kredit götürmək üçün təhsildə keyfiyyət göstəriciləri münasib olanlara ya sosial, ya da standart kredit verilir. Məsələn, ünvanlı dövlət sosial yardım alan ailələrin uşaqları, üçüncü dərəcə əlilliyi olanlar, hər iki valideyni əlil olan, işsiz kimi qeydiyyata düşən, yaşına görə sosial müavinət və ya pensiya alanlar sosial təhsil tələbə krediti götürə bilir.

Ümumi orta müvəffəqiyyət göstəriciləri 71 baldan yuxarı olanlar və təhsil haqqının 20 faizini özü ödəyənlər, həmçinin sosial tələbə krediti almaq hüququ olmayanlar standart təhsil tələbə kreditindən yararlana bilər. Xatırladaq ki, standart tələbə krediti almaq hüququ yuxarıda göstərilən şərtlərin hər üçü eyni vaxtda yarandıqda təmin olunur.

Təhsil haqqını özü ödəyən 80930 bakalavr, 10851 magistr və 34392 subbakalavriatdan akademik borcu və ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) 71 baldan aşağı olanlar kredit almaq hüququndan məhrum olur. A.Paşayev onların sayını da açıqlayıb. Belə ki, ilin ilk semestrində 28674 nəfər akademik borcu, 41291 nəfər isə ÜOMG 71 baldan aşağı olduğu üçün kredit götürə bilməyənlər siyahısına düşüb. Tələbələr arasında 16800 nəfər sosial, 39408 nəfər isə standart təhsil tələbə kreditindən yararlana bilər. Bu şərtləri ödəmədiyi üçün ötən həftə ərzində 420 tələbəyə kredit verməkdən imtina olunub: "Bəzi tələbələr müraciət zamanı qoyulan tələblərlə yaxından tanış olmayıblar. Misal olaraq, qiyabi təhsil alan tələbələr də kredit almaq üçün müraciət ediblər. Həmin tələbələrə sistem avtomatik imtina cavabı göndərib".

### GÜZƏŞTLƏRin həcminə görə ən sərfəli kredit!

Araz Paşayev təhsil tələbə kreditlərinə edilən güzəştlərdən danışıb. O, beynəlxalq təcrübədən sitat gətirərək deyib ki, təhsil tələbə krediti Avropa ölkələrində 3-5, ABŞ və Kanadada 2-7, Qazaxıstanda 10-20, Rusiyada isə 3-18 faizlə verilir.

Ölkəmizdə bir sıra kommersiya bankları tələbə kreditləri təklif edirlər. Kreditin məbləği 300 manatdan 100000 manatadək dəyişir. Ən uzunmüddətli kredit 5 ildir, ən aşağı kredit faizi 16 faizdir: "Ölkədaxili təcrübəyə nəzər salsaq görürük ki, bir sıra fond və agentliklər dövlət fondlarının vəsaiti hesabına kreditlərin verilməsini həyata keçirir. 2011-2015-ci illərdə Mərkəzi Bankın təşəbbüsü ilə seçilmiş agent banklar vasitəsi ilə ADA Universiteti tələbələrinə güzəştli kreditlərin verilməsi layihəsi reallaşdırılıb. Müvafiq kreditlər faiz dərəcəsi 5 faiz olmaqla10 il müddətədək verilib. Hazırda həmin kreditlərin qalıq məbləği 91 min manat təşkil edir və keyfiyyəti qənaətbəxşdir".

Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına verilən tələbə krediti üzrə ümumi tələblərə gəlincə, sosial tələbə kreditləri üzrə illik faiz dərəcəsi 2, standart tələbə kreditləri üzrə illik faiz dərəcəsi isə 6 faizdir. Təhsil, güzəşt və möhlət müddətində kreditə faiz hesablanmır və ödəniş tələb olunmur. Bu, tətbiq edilən güzəştlərinə görə, nəinki ölkəmizdə, dünyada ən sərfəli kreditdir. Məsələn, sosial tələbə kreditindən istifadə edən şəxslər üçün tətbiq edilən güzəştlərə nəzər salaq. ÜOMG-si 71 bal və yuxarı olan tələbəyə həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır. Bütün tədris semestrlərində ÜOMG-si 91 bal və yuxarı olan tələbələr təhsil müddətində aldığı tələbə kreditinin yarısının ödənişindən azad olunur. Demək, tələbə götürdüyü pulu elə təhsil aldığı müddətdəcə keyfiyyət göstəricilərini yaxşılaşdırmaqla silməyə başlaya bilər.

Standart tələbə kreditindən istifadə edən şəxslər üçün də müvafiq imkanlar var. Məsələn, ÜOMG-si 91 bal və yuxarı olan tələbəyə həmin tədris semestri üçün götürdüyü kreditə görə faiz hesablanmır. Həmin tələbə bütün tədris semestrlərində ÜOMG-sini 91 bal və yuxarı saxlamaqla təhsil müddətində aldığı tələbə kreditinin 25 faizinin ödənişindən azad olunur.



### Hər tələbəyə 2-4 il möhlət

Kredit götürən hər tələbənin möhlət hüququ var. Tələbə kreditlərinə 2-4 il möhlət verilir və kreditlər müəyyən hallardan sığortalanır. Beləliklə, yuxarı təhsil səviyyəsində əyani təhsil alan hər şəxs bu müddətdə borc qaytarmır. Həqiqi hərbi xidmət, məhkumluq da möhlət qazanmaq üçün keçərli səbəblərdəndir. İşləyən məzunlara münasibətdə hamiləliyə və doğuma, həmçinin uşağının üç yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli sosial məzuniyyət nəzərdə tutulub. Sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq müddəti də möhlət üçün önəmli səbəblərdəndir.

**Ruhiyyə DAŞSALAHLI**

# Tələbələr üçün "Qış düşərgəsi"





Fevralın 5-də Təhsil İnstitutunun (ARTİ) təşkilatçılığı ilə Quba rayonunda tələbələrin qış düşərgəsinin (Winter bootcamp) açılış mərasimi baş tutub.

Açılış mərasimində iştirak edən ARTİ-nin direktoru Rüfət Əzizov təqdimatında tələbələrə riyaziyyat elminin əhəmiyyəti, riyaziyyat və iş dünyası arasındakı əlaqədən danışıb, riyaziyyatın həyatla əlaqəsini interaktiv şəkildə izah edib. Daha sonra dizayn təfəkkürü və onun hissələri haqqında çıxış edib, ənənəvi təfəkkürün fərqlərinin izahını verib. Həmçinin əzmkarlıq və mükəmməllik, proseslərin standartlaşdırılması və prosedurlar haqqında danışaraq müxtəlif beynəlxalq idarəetmə və keyfiyyətə nəzarət sistemlərindən nümunələri diqqətə çatdırıb.

Düşərgədə gün boyunca maraqlı və əyləncəli tanışlıq, komanda oyunları ilə tələbələr arasında informasiya mübadiləsi həyata keçirilib. Tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsi təmin edilib.

Qeyd edək ki, "Qış düşərgəsi" 13 fevral 2022-ci il tarixinədək davam edəcək.

Düşərgə çərçivəsində tələbələrə təcrübəli müəllimlər tərəfindən xüsusi hazırlanmış təlimlər təşkil ediləcək. Təlimlərin sonunda keçiriləcək test imtahanının nəticələrinə uyğun olaraq, ilk 3 yeri qazanan iştirakçıya qiymətli hədiyyələr və sertifikat, bütün iştirakçılara isə sertifikat təqdim olunacaq. İştirakçıların əylənərək öyrənməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə düşərgədə, həmçinin, müxtəlif idman və bilik yarışları təşkil olunacaq.

Düşərgənin keçirilməsində məqsəd tələbələr arasında ali riyaziyyat sahəsinə olan marağın artırılması, riyaziyyatın yeni texnologiyalar və süni intellekt sahəsində tətbiqi dairəsinə dair məlumatların verilməsi və qış tətili dövründə tələbələrin riyazi biliklərinin gücləndirilməsidir.

# "Kiçik akademiya"ların fəaliyyətinə dair növbəti görüş

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşkilatçılığı ilə ümumi təhsil müəssisələrində "Kiçik akademiya"-ların fəaliyyətinə dair növbəti görüş keçirilib.

Görüşdə BŞTİ-nin müdir müavini Hüseyn Əsgərov və 12 inzibati rayon üzrə ümumi təhsil məktəblərinin "Kiçik akademiya" rəhbərləri iştirak ediblər.

Görüşün keçirilməsində məqsəd yaradıcılıq və elmi-tədqiqat işlərinə maraq göstərən, bu sahədə potensial imkanları ilə fərqlənən istedadlı uşaq və gənclərlə aparılan işin gücləndirilməsi, yeni fəaliyyət mexanizmlərinin yaradılmasına köməklik göstərilməsi və şagirdlərdə tədqiqatçılıq qabiliyyətinin formalaşması ilə bağlı sistemli tədbirlərin həyata keçirilməsi üçün yaradılan "Kiçik akademiya"ların qarşısında duran məsələlər barədə müzakirə aparmaqdan ibarətdir.

Həmçinin görüşdə yuxarı sinif şagirdlərinin elmi axtarışlara sövq edilməsi, onların "Sabahın alimləri" və bu kimi digər müsabiqələrdə iştirak təcrübələrinin artırılması, müasir tədqiqat metodlarına yiyələnməsi, ali təhsil müəssisələri ilə ümumi təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi haqqında fikir mübadiləsi aparılıb.

Görüşdə iştirak edən şagirdlərin təklifləri və fikirləri dinlənilib. "Kiçik akademiya"ların fəaliyyətinin gücləndirilməsinin və şagirdlərdə tədqiqat işinə marağın artırılmasının qarşıya qoyulan əsas hədəflərdən olduğu bildirilib.

Meqapolislər olimpiadası hər il Moskvada keçirilən beynəlxalq komanda yarışıdır. Buraya dünyanın ən böyük şəhərlərində yaşayan 14-18 yaşlı şagirdlər qatılırlar. İlk Meqapolislər olimpiadası 2016-cı ildə 22 meqapolisdən olan 173 şagirdin iştirakı ilə təşkil edilib.

# Meqapolislər olimpiadası

## 2017-ci ildən bu olimpiadaya qoşulan məktəblilərimiz 26 medal qazanıblar



**Günel ƏSƏDOVA,**
*ARTİ-nin İstedadlı uşaqlarla iş şöbəsinin əməkdaşı*

Hər il ənənəvi üsulla təşkil olunan olimpiada COVID-19 pandemiyası ilə əlaqədar olaraq, 2020-ci ildən etibarən distant formada keçirilir. Müvəqqəti xarakter daşıyan vəziyyət səbəbindən olimpiada iştirakçı ölkələrin yerli təşkilatçıları tərəfindən müəyyən edilmiş yerlərdə təşkil edilir. Belə ki, sanitar qaydalara uyğun, epidemiya əleyhinə tədbirlər görülən, videoçəkiliş imkanları, stabil internet və yazı işlərinin skan edilməsi üçün işlək çap aparatı ilə təmin olunan yer müəyyənləşdirilir.Eyni zamanda, hər fənn üzrə ayrıca auditoriya hazırlanır, praktiki tapşırıqların aparılması üçün laboratoriya otaqları seçilir və orada ixtisaslı laborantın iştirakı təmin edilir.

Meqapolislər olimpiadasında şagirdlərin fizika, kimya, riyaziyyat və kompüter elmləri üzrə bilikləri ölçülür. Hər fənn üzrə 2 iştirakçı təyin olunur və nəticədə hər bir ölkəni 8 iştirakçıdan ibarət komanda təmsil edir. Həmçinin, olimpiadanın keçirildiyi fənlər üzrə 4 nəfər elmi rəhbər də komandaya daxil olur. Rəsmi dili rus və ya ingilis dilləri olan olimpiadanın ölkələr üzrə seçilən elmi rəhbərləri bu dillərdən ən az birini bilən fənn müəllimi olur. Elmi rəhbərlərin dil bilgisi tapşırıqların ana dilinə tərcüməsi üçün vacibdir.

Olimpiada blits-tur və iki əsas müsabiqədən (nəzəri və praktiki) ibarətdir. Blits-tur üçün ayrılan müddət 2 saatdır. Həmin vaxt ərzində hər komandaya təqdim edilən 80 sual düzgün həll edilməklə yanaşı, sürətli şəkildə baş verməlidir. Blits-tur müstəqil yarışmadır və onun nəticələri ümumi sıralamaya təsir göstərmir.

Əsas müsabiqələr isə fənlərdən asılı olaraq bir-birindən fərqlənir. Belə ki, kimya və fizika fənləri üzrə iştirakçıların nəzəri və praktiki tapşırıqları olduğu halda, informatika və riyaziyyat fənləri üzrə iştirakçılar üçün hər iki müsabiqə nəzəri turdan ibarət olub məsələ həllini əhatə edir.

İnformatika fənni üzrə müsabiqə 2 nəzəri turdan ibarət olmaqla, 5 saat ərzində davam edir. Hər tur üçün 4 tapşırıq hazırlanır. Hər tapşırıq isə 100 balla dəyərləndirilir. Yerli təşkilatçı hər bir iştirakçını texniki tələblərə cavab verən kompüter və ya noutbukla, həmçinin, avadanlıqların lazımi proqram təminatı ilə təchiz olunmasını təmin edir. İştirakçılara qələm, sadə karandaş və ağlama istifadə etmələrinə icazə verilir.

Riyaziyyat fənni üzrə müsabiqə 2 nəzəri turdan ibarət olmaqla, 4 saat 30 dəqiqə ərzində davam edir. Hər turda şagirdlərə 3 tapşırıq verilir. Hər tapşırıq isə 7 balla dəyərləndirilir. İştirakçılara qələm, sadə karandaş və xətkeşdən istifadə etməyə icazə verilir.

Fizika fənni üzrə müsabiqə nəzəri və praktiki turdan ibarətdir. Hər iki tur üzrə imtahan müddəti 6 saatdır. Nəzəri turda şagirdlərə 3, praktiki turda isə 1 tapşırıq hazırlanır. Praktiki turda iştirakçılara eksperimentin çoxsaylı baxışı dəstəkləyən videoçarx qeydi və həmin videoçarxın stenoqramı verilir. Fizika fənni üzrə iştirakçıların videoçarxa baxa bilməsi üçün yerli təşkilatçı onları noutbuk və ya kompüterlə təmin edir. Verilən kompüter və ya noutbuklarda ekran görüntüsünü qeydə alan xüsusi proqram təminatı dəstəklənir. İştirakçılara iş masalarında qələm, sadə karandaş, xətkeş və proqramlaşdırılmamış kalkulyatordan istifadə etməyə icazə verilir.

Kimya fənni üzrə müsabiqə, davam etmə müddəti 4 saat olan nəzəri və praktiki turdan ibarətdir. Praktiki tur kimya laboratoriyasında ixtisaslı laborant iştirakında keçirilir. Bu tur üçün yerli təşkilatçı əvvəlcədən laboratoriya otağının xüsusi qab və kimyəvi maddələrlə, iştirakçıların isə ağ xalat və qoruyucu eynəklə təmin edilməsini təşkil edir.Kimyəvi maddələrin siyahısı öncədən olimpiada saytında elan edilir. İştirakçılara iş masalarında qələm, sadə karandaş, xətkeş və proqramlaşdırılmamış kalkulyatordan istifadə etməyə icazə verilir. İstinad materialları tapşırıqlara əlavə edilir.

Olimpiadatapşırıqlarının çətinlik səviyyəsi nüfuzlu beynəlxalq olimpiadaların tapşırıqlarının çətinlik səviyyəsinə bərabərdir. İştirakçıların yazı işləri görkəmli alimlərin və tanınmış müəllimlərin daxil olduğu beynəlxalq münsiflər heyəti tərəfindən qiymətləndirilir.

Olimpiadanın başlama vaxtı iştirakçıların tərkib sayından və ölkələrin müvafiq saat qurşaqlarına əsasən təyin olunur. Müxtəlif ölkələrdə olimpiadanın başlama vaxtı fərqli ola bilər, lakin sonuncu qoşulan komandaların olimpiadaya başlama vaxtı, birinci qoşulan komandanın bitmə vaxtından daha gec olmur. İştirakçıların olimpiadaya qeydiyyatı Meqapolislər olimpiadasının rəsmi saytında əvvəlcədən təyin olunmuş tarixdən gec olmayaraq təsdiq edilir. Onlayn qeydiyyatın təsdiq olunması bildirir ki, rəhbər və iştirakçılar olimpiada müddətində videoçəkilişin aparılmasına və olimpiadanın təşkilat komitəsinə videomateriallarn ötürülməsinə öncədən razılıq verirlər.

Bütün fənlər üzrə hər iki müsabiqə bitdikdən sonra tapşırıqların həlli olimpiadanın rəsmi saytında yerləşdirilir. İştirakçıların nəticələrinin qiymətləndirilməsi ilə bağlı razılaşmayan komanda rəhbərləri apelyasiyaya vermək hüququna malikdirlər. Fənlər üzrə apelyasiyaya verilməsi və baxılması qaydası ilə olimpiadanın rəsmi internet saytında tanış olmaq mümkündür.

Olimpiada ənənəvi formada təşkil edildiyi halda, iştirakçılara fasiləsiz gərgin müsabiqə turları ilə yanaşı, zəngin mədəni proqram da hazırlanır. Onlar üçün ekskursiyalar, muzeylərə səyahətlər, gəmi və digər gəzintilər təşkil edilir.

Azərbaycan məktəbliləri bu olimpiadada 2017-ci ildən etibarən iştirak edir. Belə ki, milli komandamız tərəfindən Meqapolislər olimpiadasında 2017-2018-ci tədris ilində 1 qızıl, 4 bürünc, 2018-2019-cu tədris ilində 1 qızıl, 1 gümüş, 2 bürünc medal, 2019-2020-ci tədris ilində 4 gümüş, 1 bürünc, 2020-ci ildə 2 gümüş, 5 bürünc, 2021-ci ildə isə 1 gümüş və 4 bürünc medal olmaqla, ümumilikdə 2 qızıl, 8 gümüş və 16 bürünc medal qazanılıb. Əlavə olaraq 2021-ci ildə keçirilən Meqapolislər olimpiadasında komanda olaraq şagirdlərimiz 3-cülük mükafatına layiq görülüblər.




# "Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi"



## Pilot layihə çərçivəsində onlayn görüş

"Təhsil sistemində uşaq müdafiəsi və təhlükəsizliyi" pilot layihəsi çərçivəsində onlayn görüş keçirilib.

Onlayn görüşdə Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdiri Mehriban Vəliyeva, Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdir müavini Sevinc Qasımova, BŞTİ-nin İnkişaf layihələri sektorunun müdiri Günay Qurbanova, Təhsil İnstitutunun Layihələrin İdarə olunması şöbəsinin müdiri Nailə Ömərova, BMT-nin Uşaq Fondunun (UNICEF) Azərbaycan nümayəndəliyinin əməkdaşı Vüqar Salmanov və İdarənin tabeliyində fəaliyyət göstərən pilot layihədə iştirak edəcək 25 ümumi təhsil müəssisəsinin rəhbərləri iştirak ediblər.




Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva layihənin ümumi təhsil müəssisələrində keçirilməsini yüksək qiymətləndirib. M.Vəliyeva ölkəmizdə uşaq hüquqlarının qorunması, onların hər cür diqqət və qayğı ilə əhatə olunmasının istər dövlətin, istərsə də cəmiyyətin başlıca məqsəd və vəzifələrindən biri olduğunu söyləyib. Bildirib ki, ölkə Prezidenti İlham Əliyevin 27 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda əhalinin müxtəlif qruplarının, o cümlədən də uşaq hüquqlarının müdafiəsi ilə bağlı təsbit olunan müddəalar uğurla həyata keçirilir.

Daha sonra çıxış edən Təhsil İnstitutunun Layihələrin İdarə olunması şöbəsinin müdiri Nailə Ömərova və BMT-nin Uşaq Fondunun Azərbaycan nümayəndəliyinin əməkdaşı Vüqar Salmanov layihə barədə təqdimatla çıxış ediblər.

Sonda layihə ilə bağlı məktəb direktorlarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Təhsil Nazirliyi, Təhsil İnstitutu və BMT-nin Uşaq Fondu tərəfindən həyata keçirilən layihənin əsas məqsədi təhsil müəssisələrində uşaq hüquqlarının və rifahının daha səmərəli qorunmasına nail olmaqdan ibarətdir.

# Paytaxt məktəbində "Atalar və məktəb birliyi" yaradılıb

Paytaxtdakı 300 nömrəli tam orta məktəbin təşkilatçılığı ilə "Atalar və məktəb birliyi" yaradılıb.

"Atalar və məktəb birliyi"nin yaradılmasında əsas məqsəd ataları övladlarının təhsil aldıqları tədris ocaqları ilə yaxından tanış etmək, tədris prosesinin təşkili istiqamətində onları məlumatlandırmaq, atalarla məktəb arasında ünsiyyət platformasını daha da genişləndirmək və övladlarının təhsilinə nəzarət işində onların rolunu artırmaqdan ibarətdir.

Layihə çərçivəsində IX-XI sinif şagirdlərinin ataları ilə görüş keçirilib.

Görüşdə atalar məktəb mühiti ilə tanış olub, onlara məktəbin fəaliyyəti, tədris prosesi barədə ətraflı məlumat verilib. Valideynlərin məktəb mühitinə töhfələri ilə bağlı rəyləri, təklifləri dinlənilib və tədris prosesinin təşkilinin daha da təkmilləşdirilməsi istiqamətində səmərəli fikir mübadiləsi aparılıb.

Atalara təşəbbüskar və daha fəal olmaq, eləcə də müəllim-şagird-valideyn birliyinin əhəmiyyəti haqqında tövsiyələr verilib.

Həmçinin atalar məktəblə, görülən işlərlə, tənəffüslərdə övladlarının davranışları ilə yaxından tanış olmaq imkanı qazanıblar.

# "Öyrənməyin yeni və daha asan yollarını seçmişəm"

**Turan Tahirli 1992-ci ildə Şəki şəhərində anadan olub. 2011-2015-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şəki filialının tarix-coğrafiya fakültəsində təhsil alıb. Həmin il Şamaxı rayon Hacıqədirli kənd tam orta məktəbində coğrafiya müəllimi kimi fəaliyyətə başlayıb. 3 il bu məktəbdə çalışdıqdan sonra 2018-ci ildə müəllimlərin diaqnostik qiymətləndirilməsində 54 bal toplayaraq Şəki rayon Çələbixan qəsəbə tam orta məktəbinə təyinat alıb.**

## Turan Tahirli:

## "Şagirdlərimdə özlərinə qarşı tələbkarlıq və bacarıqlar formalaşdırmağa çalışıram"



- *Turan xanım, necə oldu ki, müəllimlik peşəsini seçdiniz?*

- Hələ aşağı sinifdə oxuyarkən qonşuluqdakı uşaqları başıma yığıb, müəllimlərimdən öyrəndiklərimi təqlid edərək kiçik sinif mühiti yaradardım. Nəyi öyrətdiyimi xatırlamasam da, bunu kiçik yaşlarımdan müəllimlik sənətinə həvəs və istəyimin olduğunu göstərən bir nüans kimi xatırlayıram. Daha yuxarı siniflərdə isə qərarlı şəkildə müəllimlik sənətinə yönəlməyimə səbəb coğrafiya müəllimim Dilbazi Cəmilov olduğunu düşünürəm. Hər dərs Dilbazi müəllim mövzuları izah etdikcə yeni-yeni coğrafi məlumatlar məndə həm müəllimimizin tədris etdiyi fənnə, həm də onun sənətinə böyük maraq yaradırdı. Artıq IX sinifdə oxuyanda müəllim olmağın, şagirdlərə təbiət və cəmiyyətin keçmiş, indiki, gələcək inkişafını, təbiətdə baş verən dəyişiklikləri təsvir etməyin mənə hədsiz zövq verəcəyi qənaətinə gəldim. Bir müddətdən sonra institutda oxuyarkən düşünürdüm ki, coğrafiya daim inkişaf edən dünyada baş verən təbiət hadisələri, sosial-iqtisadi və ictimai münasibətlərdən baş çıxara bilmək üçün öyrənilməsi vacib olan fənlərdən biridir.

- *Turan xanım, şagirdlərlə ilk dərs gününüzü necə xatırlayırsınız?*

- Şagirdlərlə ilk dərs günümdə olduqca həyəcanlı idim. Amma buna baxmayaraq, ilk tanışlıqdan sonra onların maraqları haqqında ətraflı söhbətlər etdik. Belə məqamda şagirdlər üçün nə qədər maraqlı olduğunu və fənni öyrənməyə həvəs yarada bildiyimi gördüm. Həm də onlara tədris edəcəyim fənnə maraq yaratmaq üçün coğrafiyanın öyrənilməsinin hansı üstünlüklərə malik olması haqqında danışdım.

- *Çələbixan qəsəbə tam orta məktəbini seçərkən bu təhsil müəssisəsini necə təsəvvür edirdiniz və işə başlayanda hansı vəziyyətlə rastlaşdınız?*

- Çələbixan qəsəbə tam orta məktəbi doğulub böyüdüyüm Şəki şəhərində yerləşdiyi üçün müəyyən qədər təsəvvürlərə malik idim. Təsəvvürlərim də ətrafımda olan insanlardan topladığım məlumatlara əsasən formalaşmışdı. Bilirdim ki, şəhərdən gedib Çələbixan məktəbində işləyən müəllimlər çoxdur, o cümlədən ali məktəblərə, eləcə də kolleclərə daxil olan şagirdlərin çox olduğunu eşitmişdim. Bu da məndə məktəblə bağlı müsbət fikirlər yaradırdı. Təhsil ocağında rastlaşdığım real vəziyyət düşündüklərimi, təsəvvürlərimi, hətta üstələdi. Dövlətimiz tərəfindən tikilib istifadəyə verilən bu gözəl məktəb binası şagirdlərin keyfiyyətli təhsil alması üçün hər cür şərait və vasitələrlə təchiz olunmuşdur.

İşlədiyim məktəbdə şagirdlərə artıq öyrəşmişəm. Amma düzünü desəm, yenidən MİQ imtahanında iştirak edərək, yaşadığım yerə yaxın məktəblərdən birində fəaliyyətimi davam etdirmək fikrindəyəm...

- *Dərs vaxtı səs salan, dərsə mane olan şagirdlərə necə yanaşırsınız?*

- Fikrimcə, dərs maraqlı təşkil olunarsa, hər bir şagird potensialına uyğun fəaliyyətə cəlb edilərsə, bu vəziyyətlə nadir hallarda üzləşilər. Fəaliyyətim dövründə belə şagirdlərlə az hallarda qarşılaşmışam. Şagirdləri "cəzalandırmaq" üçün hər hansısa bir təzyiq göstərməkdən hər zaman uzaq olmuşam, həmişə onlarda dərsə maraq yaratmağa çalışmışam. Həm səs salan, həm də dərsə mane olmağa çalışan şagirdlərlə tərbiyəvi və maarifləndirici söhbətlər etməyə daim üstünlük vermişəm. Əsas məqsədim şagirdləri yalnız təhsilli şəxslər kimi deyil, həmçinin müsbət insani keyfiyyətlərə sahib olan bir şəxsiyyət kimi yetişdirmək olub.

- *Bir müəllim üçün ən gözəl hədiyyə, sizcə, nədir?*

- Mənim üçün ən gözəl hədiyyə şagirdlərimizin dərslərə daim hazırlıqlı olmaları, dərslərini yaxşı oxumaları və ali təhsil almalarıdır.

- *Hazırda tədris etdiyiniz fənn üzrə şagirdlərinizin bilik səviyyəsi sizi qane edirmi?*

- Dərslərimdə interaktiv təlim metodlarından bacarıqla istifadə etməklə, şagirdlərimin dərsdə fəal iştirakının təmin olunmasına, onların tədris prosesindən kənarda qalmamasına nail oluram. Ona görə də hazırda şagirdlərimin bilik səviyyəsi məni qane edir cümləsini işlətməyəcək qədər özümə qarşı da tələbkaram və şagirdlərimdə də özlərinə qarşı tələbkarlığı və təhsil bacarıqlarını formalaşdırmağa çalışıram.

- *Arzunuz və gələcək planlarınız...*

- Gələcək planlarıma müəllimlik fəaliyyətimi davam etdirməklə yanaşı, ən böyük istəyim, həm şagird, həm də tələbələrdə öyrənmə bacarığını inkişaf etdirmək və bu yolda onlara istiqamət vermək üçün kitab yazmaq daxildir. Bu fikrə gəlməyimə əsas səbəb kimi institut illəri və ondan sonrakı dövrlərdə öyrənməyin yeni və daha asan yollarını seçməyimi göstərə bilərəm. Düşünürəm ki, əgər bu fikirləri daha əvvəlki illərdə müəyyənləşdirə bilsəydim məqsədlərimə daha asan və az vaxt itkisi ilə çatmış olardım. Əgər arzumu həyata keçirə bilsəm, bu kitabla öyrənənlərə öyrənmə fəaliyyətində kömək olmaq əsas məqsədim olacaq.

- *Sonda müəllim olmaq istəyənlərə nə tövsiyə edərdiniz?*

- Bu peşəni seçən hər kəs unutmamalıdır ki, müəllimlik şox şərəfli və məsuliyyətli bir peşədir. Bu peşəni seçənlər müəllimlikdən başqa heç nə düşünməməli, bütün diqqət və motivasiyası bununla əlaqəli olmalı, daim öz üzərində çalışmalıdırlar.

**Şakir CƏFƏROV**



# Qəhrəman müəllimin şərəfli ömür yolu

**Ömərov Qoşqar Səxavət oğlu 9 fevral 1994-cü ildə Kürdəmir rayonunun Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olub. 2011-ci ildə Qarasu kənd orta məktəbini yüksək qiymətlərlə bitirərək 466 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat-informatika fakültəsinin tələbə adını qazanıb.**

2015-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnformasiya texnologiyaları ixtisası üzrə magistraturasına daxil olsa da, hərbi xidmətə yola düşüb. 2016-2018-ci illərdə magistr təhsili alıb. 2018-ci ildə MİQ imtahanında 57 bal toplayaraq Masazır kənd 5 nömrəli tam orta məktəbdə riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. Bununla yanaşı, bir sıra özəl kurslarda da riyaziyyat fənnini tədris edib.

Artıq arzusuna çataraq müəllim kimi gələcəyə ümidlə baxırdı. Qoşqara riyaziyyatı sevdirən, onda müəllim olmaq həvəsini yaradan, həm də öz riyaziyyat müəllimi olan atası Səxavət Ömərov olmuşdu. Belə çalışqan, istedadlı olması da ailədən bəhrələnirdi. İstər şagird, istər tələbə, istərsə də müəllimlik fəaliyyəti dövründə savadı, intellekti, tərbiyəsi ilə seçilən Qoşqar Ömərov hər kəsin hörmətini, rəğbətini qazanmışdı. Artıq müəllim kimi fəaliyyətə başladığı ilk vaxtlardan şagirdlərinin də sevimlisi olmuşdu. Yeni uğurlar, nailiyyətlər əldə edən gənc müəllim qarşısına qoyduğu bütün məqsədlərin öhdəsindən layiqincə gəlirdi. Əldə etdiyi bütün uğurlarının qarşısında isə onun sadəliyi, mərdliyi və möhkəm iradəsi dayanırdı...

Qoşqar Ömərov ailənin sonuncu övladı olmasına baxmayaraq sanki bütün ailənin ümidləri ona idi. Subay idi. Ailəsinin bütün təkidlərinə baxmayaraq hələ də üzərinə düşən missiyasını tamamlamadığını düşünürdü. Bəlkə də buna görə ailə qurmaq haqqında fikirləşmirdi. Müəllimlik müqəddəs peşədir, bu peşəyə sahib olan Qoşqar Ömərov məsuliyyətini dərk edirdi. Bir müəllim kimi şagirdlərinə hər zaman vətən, torpaq sevgisini aşılayırdı. Atasının da sözlərinə görə, ailəsində də hər zaman söhbət edərkən torpaqlarımızın işğal altında olmasının onu çox narahat etdiyini deyirmiş. 26 illik qısa ömrünə ən müqəddəs yüksək zirvəni sığdıran Qoşqar müəllim uca Şəhidlik zirvəsini fəth etdi.

Vətən, yurd sevgisi onun bütün gələcək arzularından öndə getdi, gələcək nəsillərə, öz şagirdlərinə örnək bir yol seçdi. Bir gün şagirdləri onu sinif otağında gözləyən zaman xəbər gəlir ki, Qoşqar müəllim 21 sentyabr 2020-ci ildə vətənin çağırışına könüllü qoşulur. Vətən məni çağırır deyib son dəfə ailəsi ilə sağollaşıb ordu sıralarına yollanır. Vətənini, xalqını düşünərək geridə ailəsini, onu sevənlərini və öz arzularını qoyub 27 sentyabrdan - müharibə başlandığı gündən Füzuli cəbhəsindən müharibəyə qatıldı. Döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilir. Bir pedaqoqun düşmənə dərs verməsi idi bu. Döyüs yoldaşlarının da dediyinə görə, 38 gün müharibədə düşmənə qarşı sarsıdıcı zərbələr endirərək son ana qədər əzm göstərmisdi. Yaralı və şəhid olmuş döyüş yoldaşlarının çıxarılmasına köməklik göstərmişdi. Bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak etmişdir. Noyabrın 3-də Şuşanın Daşaltı kəndinin ətrafında gedən döyüşlərdə qəhrəmanlıqla şəhid olur. Noyabrın 4-ü artıq bütün kənd və Qoşqarı sevənlər onun şəhid xəbərini alır. Qoşqar Ömərov noyabrın 5-i öz doğulub boya-başa çatdığı Kürdəmir rayonu Şilyan (Qarasu) kəndində dəfn olunur.

Fevralın 9-u Qoşqarsız qeyd olunan artıq ikinci doğum günü idi. Yaşasaydı, 28 yaşını qeyd edəcəkdi. Onu sevənlər bu gün də onun məzarının başına toplaşırlar. Xatirəsini hər zaman əziz tuturlar. Qoşqar Ömərov bu gün tək onu tanıyanların deyil, bütün Azərbaycanın fəxridir. Şəhadətindən 1 il 3 ay keçsə də, ailəsi və onu sevənlər hələ də yoxluğu ilə barışa bilməyib, lakin yeganə təsəlli onun Vətən uğrunda Şəhidlik zirvəsinə ucalmasıdı. Bu gun tarix yazan müəllimdən geriyə təmiz adı, şərəfli ömür yolu bizlərə əmanətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Qoşqar Ömərov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

**Türkan AYDINLI**



# Məktəblinin idman uğurları

Təhsil Nazirliyi "Təhsil" Respublika İdman Mərkəzinin Sumqayıt şəhər 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat məktəbinin cüdo bölməsinin yetirməsi Fəxri Mustafayev bu yaxınlarda Xızı rayonunda keçirilmiş II Qarabağ müharibəsində qəhrəmancasına həlak olan şəhidlərimizin xatirəsinə həsr olunmuş zona yarışında I yerə layiq görülüb.

Fəxri 2006-cı ildə Bərdə rayonunda anadan olub. Saray qəsəbə 3 nömrəli tam orta məktəbin X sinif şagirdidir. Onunla görüşüb idmanda əldə etdiyi uğurları barədə söhbət etdik. İdman məktəbində təcrübəli cüdo müəllimi Rüfət Mikayılovdan cüdonun sirlərini öyrənir. Uşaqlıqdan idmana böyük marağı olan Fəxri Mustafayev 2015-ci ildən cüdo ilə məşğul olur. İlk uğurları da həmin vaxtlardan başlayır. Belə ki, 2019-cu ildə Türkiyədə dörd ölkənin idmançılarının (Azərbaycan, Türkiyə, İran, Gürcüstan) iştirakı ilə keçirilən turnirdə rəqiblərindən fərqlənərək II yerin sahibi olub. Bundan başqa, həmin ildə İran İslam Respublikasında cüdo üzrə keçirilən klublararası turnirə qatılan Fəxri III yeri tutub. Arzusu idman sahəsində tanınmış idmançı olaraq olimpiya çempionu adına layiq görülməkdir. Biz də Fəxriyə bu yolda uğurlar arzulayırıq.

**Rəşad ZİYADOV**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 1031 **Sifariş** 432

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2006-cı ildə Merkuzin Artur Sergeyeviçə verilmiş B-076067 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin** "Elmi əsərlər məcmuəsi"nin qeydə alınması barəsində 2003-cü ildə Ədliyyə Nazirliyi tərəfindən verilmiş 539 nömrəli mətbu uçot vərəqəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası** tərəfindən 2011-ci ildə Nəbiyev Cəlal Nizami oğluna verilmiş B-212715 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Sənaye İnstitutu** tərəfindən 1992-ci ildə Bağırov Bağır Ağakərim oğluna verilmiş ЦВ-856147 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universitetinin Kolleci** tərəfindən 2020-ci ildə Əmişova Aynur Mirrahib qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şəkili Ələsgər adına Şəki Musiqi Texnikumu** tərəfindən 2000-ci ildə Aydınlı Günel Mahir qızına verilmiş AB-II-055124 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Respublika Olimpiya İdman Liseyini** 2017-ci ildə bitirmiş Ağaquliyev Zamin Fərrux oğluna verilmiş E-038548 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Susay kənd orta məktəbin VIII sinfini 1992-ci ildə bitirmiş Ağaliyev Cavid Hacıqadaş oğluna verilmiş A-900938 nömrəli natamam orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Dövlət Dəniz Administrasiyası** tərəfindən 2016-cı ildə Rüstəmov İlham Bəhram oğluna verilmiş İD-0000682, 000201\16 nömrəli baş Mexanik sertifikatı və onun təsdiqnaməsi itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 10 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Şirinova Lətifə Vidadi qızına verilmiş E-323315 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Maliyyə İqtisad Kolleci** tərəfindən 2021-ci ildə Quliyev Ayxan Elşad oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb** tərəfindən 2006-cı ildə Quliyev Elvin Yavər oğluna verilmiş B-056044 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəb** tərəfindən 2007-ci ildə Quliyev Nurlan Yavər oğluna verilmiş B-077754 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 15 nömrəli tam orta məktəbin VIII sinfini 1992-ci ildə bitirmiş Abdullayev Abdulla Həsənbala oğluna verilmiş A-474211 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Ərkivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Şiriyev Vüsal Sərdar oğluna verilmiş E-380272 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Akademik Zərifə Əliyeva adına Liseyi** 2015-ci ildə bitirmiş Hüseynov Cəfərsadiq Ədalət oğluna verilmiş A-418261 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Əliyeva Ləman Əsəd qızına verilmiş B-224907 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 62 nömrəli məktəb-liseyi 2010-cu ildə bitirmiş Əfəndiyeva (Hacaliyeva) Aytən Akif qızına verilmiş B-677882 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Əliyeva (Mirzəyeva) Şəlalə Əhməd qızına verilmiş A-636960 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Siyaku kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş İrşadov Qabil Ayaz oğluna verilmiş A-029244 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Tağıyeva (Zeynalova) Təranə Qadağa qızına verilmiş ƏƏ-001725 nömrəli arayış itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 2 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Zeynalov Elvin İlyas oğluna verilmiş A-636837 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Ərçivan qəsəbə 3 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Baxşiyeva Aidə Azad qızına verilmiş B-189878 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Suparibağ kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Qafarov Qafar Əlişah oğluna verilmiş A-071512 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Ağlavaşlı kənd tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Həsənova Şəbnəm Aftandil qızına verilmiş A-293739 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** M.Füzuli adına Təbiət və Humanitar Fənlər Təmayüllü məktəb-liseyi 2011-ci ildə bitirmiş Rzayev Elvin Yaqub oğluna verilmiş A-067230 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2008-ci ildə Dadaşova (Əliyeva) Xanım Natiq qızına verilmiş B-134216 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 6 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Məmmədova Aytac İlqar qızına verilmiş E-169576 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Məmmədəliyev Fərid Azər oğluna verilmiş E-273391 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 39 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Həsənova (Yarıyeva) Nuriyyə Yaşar qızına verilmiş A-521603 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2014-cü ildə (eksternat qaydada) bitirmiş Məmmədzadə Məlik Məmməd oğluna verilmiş A-351905 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qazanbulaq qəsəbə tam orta məktəbi 2010-cu ildə bitirmiş Məmmədova Jalə Ruslan qızına verilmiş B-712343 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2003-cü ildə Nabatova Aynur Ağaməmməd qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 273 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Seyidova Nuranə Mirabbas qızına verilmiş B-026716 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Çayrud kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Şamiyeva (Ağayeva) Günay Firudin qızına verilmiş A-346589 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı şəhər** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Tahirova Ramilə Gülhüseyn qızına verilmiş 040185 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Təklə kənd tam orta məktəbi 1980-ci ildə bitirmiş Məmmədova Nəzmiyyə Abı qızına verilmiş A-403565 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əsgərova Günay Səmədağa qızına verilmiş B-345112 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli orta məktəbin XII sinfini 2016-cı ildə bitirmiş Hamletzadə Firdovsi Aqşin oğluna verilmiş A-500573 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Xanbulan kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Şahverdiyev Mahir Akif oğluna verilmiş B-151517 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Parakənd kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Mirzəyeva Səbinə Ağaxan qızına verilmiş A-073471 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarakazımlı kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Hüseynova Gültəkin Həsənağa qızına verilmiş 034397 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Bəcrəvan kənd tam orta məktəbi 1993-cü ildə bitirmiş Qafarova Aygül Cəfər qızına verilmiş A-007118 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Sabirabad kənd 1 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Babayev Asif Habil oğluna verilmiş A-246176 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Zərrab kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Səfərova Gülər Əbülfət qızına verilmiş A-548170 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəngərli rayon** Qıvraq kənd 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Zeynalova Zənanə Həzrətqulu qızına verilmiş A-748660 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** 2 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Əliyeva Mədinə Hacı qızına verilmiş 1693 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 10 nömrəli tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Qədirov Namiq Qəhrəman oğluna verilmiş B-105372 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xanağalı kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Hüseynli Coşqun Nayib oğluna verilmiş A-370310 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Mədəni Maarif Texnikumu** tərəfindən 1992-ci ildə Fətəliyeva(Bayramova) Səadət Fikrət qızına verilmiş PT-I-105742 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 252 nömrəli məktəb-liseyi 1994-cü ildə bitirmiş Şiriyeva Aynur Talıb qızına verilmiş (nömrəsiz) attestat itdiyi üçün etibarsız sayılır.

**"Elm və Təhsil" Mərkəzi Təfəkkür Universitetini** 2000-ci ildə bitirmiş Cəbrayılova Fidan Malik qızına 2003-cü ildə verilmiş A-118543 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Novruzova (Orucova) Turanə Rüfət qızına verilmiş MNB-024895 nömrəli magistr fərqlənmə diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**AMK tərkibində İncəsənət Gimnaziyasını** 2013-cü ildə bitirmiş Əzizov Əziz Rahim oğluna verilmiş A-089961 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 16 nömrəli Texniki Humanitar Liseyi 2020-ci ildə bitirmiş Murğuzlu Ləman Pərviz qızına verilmiş E-281757 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** S.Əliyev adına 2 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Əsgərova Vüsalə Əliqulu qızına verilmiş A-616670 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** V.Əsgərov adına 4 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Dəmirzadə Amil İsmayıl oğluna verilmiş A-385712 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Y.Şəfiyev adına Xalxal kənd tam orta məktəbi 2014-cü ildə bitirmiş Zeynalova Nigar Vüqar qızına verilmiş A-476378 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

İdrak Liseyinin rəhbərliyi və pedaqoji kollektivi liseyin ingilis dili müəllimi Humay Muradovaya əzizi

**AYBƏNİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Daşlara hopan müəllim ömrü



## 29 il sonra doğma Ağdamı ziyarət edərkən

**Yol boyu xatirələr xatirələrə calandı. Yaşlandıqca yaddaşsızlıqdan şikayətlənsəm də, elə hadisələr, elə anlar yadıma düşürdü ki, özüm də mat qalmışdım. Keçmişi unutmamısansa, hələ keçməmiş demək... Yaxamın islandığını hiss etdim. Yol boyu gözlərimdən qeyri-ixtiyari süzülən yaşı belə duymamışdım.**

**“Gözdən sel kimi yaş axmaq” ifadəsini neçə illərdir şagirdlərimə məcazi mənalı ifadə kimi öyrətsəm də, bu gün anladım ki, bu, həqiqətən də ola bilərmiş. Bilmədim ki, bu, həsrətin bitdiyindən yaranan sevinc göz yaşları idi, yoxsa xarabalığa çevrilmiş cənnət Ağdamımın bu halının mənzərəsindən doğan kədər göz yaşları?!**



### Diz çöküb qoxuladım torpağı

Keçmişin daş qalaqlarına dönməyini gördükcə qəlbimdə doğan üsyanı özüm yatırtmağa çalışdım. Çox şükür bu günə! Çox şükür ki, torpaqlarımız düşmən tapdağında deyil. Ayağımı torpağa basanda bədənimdən elə bir gizilti keçdi ki... İfadə etmək mümkün deyil. Ayağımı hara atdığımı bilmirdim, addımlarımın idarəetməsini itirmişdim. Sanki havalarda uçurdum. Ayağım müqəddəs torpağımızı əzmək, incitmək istəmirdi elə bil... Şəhidlərimizin qanı hopan torpağa, qoymurdu ayaqlarım toxunmağa. Diz çöküb qoxuladım torpağı. Şəhidlərin ruhunu çəkdim sinəmə... Onların ruhu qarşısında diz çökməyi borc sandım özümə.. Özümü torpaqdan ayırmaq istəmirdim, elə həsrətini çəkmişdim ki!

İçimdə baş qaldıran hayqırtı qarşısında daşlar da lərzəyə gəldi elə bil. Bir zamanlar bu yerlərdə əllərindən tutub gəzdirdiyim uşaqlar: Ceyhunum, Elnurum, Nişatım indi mənim qolumdan tutub, halıma acıyırdılar. Ətrafımdakılardan məndən uzaq durmalarını xahiş etdim. Ağdamımla tək - baş-başa qalmaq istəyirdim. 29 il onsuz necə yaşadığımı, əgər buna yaşamaq deyilərsə, necə həsrət çəkdiyimi, bu həsrətlə dünyadan köçən ata-anamın nisqillərini, son nəfəslərinədək “evimi istəyirəm” yanğılı kəlmələrini, nələri... nələri... Söylədim, bərkdən-bərkdən, yanıqlı-yanıqlı, sarsıla-sarsıla... Bir anlıq elə düşünmüşdüm ki, neçə illərdir məni qovuran Vətən həsrəti yanğısını bu şəkildə söndürə bilərəm. Amma çətin!

Budur, Ağdam məscidinin qarşısındayam. Nənəmin əlimizdən tutub apardığı məscidin. O qədər hüzurlu idi ki. Dualar oxudum. Məscid də doğmalarını görüb, əvvəlki illərinə qayıtmışdı sanki.

Şəhərin mərkəzi küçələri ilə irəliləyirdim. Dəhşət idi gördüklərim. Xəyallarımda qoruyub yaşatdığım Ağdam ancaq daş yığınlarından ibarət idi. Qəhər boğurdu məni, nəfəsim çatmırdı. Başa düşdüm ki, bu həyatda boğulmaq üçün hər zaman suya ehtiyac yox imiş.

Ürəyimin döyüntüləri qulaqlarımda əks-səda verirdi. Ayrı heç nə eşitmirdim. Sanki təbiət də mənə kömək etmək istəyirdi. Narın-narın yağan qar dənəcikləri nura çevrilib ürəyimə axır, yanğını söndürməyə çalışırdı.

### Yarımçıq qaldığım yerdən dərsimə başlayacaqdım...

İndi isə Ağdam şəhər 1 nömrəli məktəbin qarşısındayam. Daha doğrusu, məktəbdən geriyə qalan daş qalaqlarının qarşısında! Xəyalımda bundan illər-illər öncə müəllim kimi qapısını açıb girdiyim məktəb canlandı nədənsə... Şərəfli müəllim ömrüm məhz bu məktəbdən başlamışdı. Elə həyəcanlanmışdım ki! Sanki yenə 23 yaşında idim. Ürkə-ürkə, çəkinə-çəkinə, amma inamlı addımlarla yenə sinfə daxil olacağam, yarımçıq qaldığım yerdən dərsimə başlayacaqdım. Gör, neçə illərin arzusu idi bu. Şirin arzusu, hansı ki, bu arzunun gerçəkləşəcəyinə özümü hər gün inandırmışdım. Cənab Prezidentimiz İlham Əliyev ilk gəlişi zamanı bu məktəbin təməlini qoyanda artıq buna tam əmin oldum. Əmin oldum ki, arzularım çin olacaq. Elə həmin gündən hamıya: “qayıdıb 1 nömrəli məktəbdə dərs deyəcəyəm daha” sözlərini elə inamla, elə qürurla söyləyirəm ki.. Əlbəttə, ömür vəfa etsə.

Yoluma davam edirəm. Bakıdan çıxanda elə düşünürdüm ki, Ağdama çatan kimi neçə illərdir çiynimi əzən yük götürüləcək. Amma gördüyüm dəhşətli mənzərələrdən ürəyimdə elə ağırlıq hiss edirdim ki... Mədəniyyət evi... Dağılsa da əzəmətini itirməmişdi. Orada sanki Qədirin yanğılı səsini duydum. Səksəndim. Lakin gördüyüm elə yenə də quru daşlar idi.

### Doğma məktəb, bağrına bas şagirdini!..

İrəlilədikcə bu daşlara hopmuş xəyallarım, xatirələrim mənimlə birgə gedirdilər. Addım səslərini duya bilirdim. Qarşısında dayandığım bu xarabalıq isə doğma 5 nömrəli məktəbim idi. On il qapısından sevinclə, həyəcanla, bəzən də həvəzsiz addım atdığım məktəbim! Aç qollarını doğma məktəb! Aç, qucaqla, bağrına bas şagirdini! Gözlərimin önündən bütün müəllimlərimin nurlu simaları, mehriban sinif yoldaşlarım, məktəbin hər tərəfində dolaşan, söhbətləşən şagirdlər canlandı. Məktəbi bu halda görmək nə qədər çətin idisə, sol tərəfə dönmək də bir o qədər çətin gəlirdi. Çünki orada ata evim var idi, tək bir hasar ayırırdı məni məktəbdən. Gözucu hasarın olmadığını gördüm. İndi başa düşdüm ki, neçə illərdir mənə yaxınlaşıb görüşən, mən tanımasam da mənə doğmalıq göstərən insanlar “5 nömrəlidə oxumuşuq, sizin evin yanında” deyən insanlar bu hasarın uçduğundandır ki, məni özlərinə bu qədər yaxın biliblər. Məktəblə, uşaqlığım ilə vidalaşıram...

### İllərdir xəyallarımda qoruduğum ATA evim!..

Evimizə sarı döndüm. Bu, elə bir an ki, bunu ancaq yaşayanlar bilər! Ürəyim dayanacaqdı sanki... Ayağımın altından yer qaçdı. Budurmu yuxularımda neçə illərdir əzizləyib, qoxuladığım, xəyallarımda yaşadıb qoruduğum ata evim?! Əzəmətli, hündür daş divarlar. İlahi! Yaxşı ki, ata-anam görmədi bunu. Onların ölümünə elə sevindim ki... Yerimirdim mən həyətimizdə, uçurdum. Sanki bir ruh idim. Bağ-baxçamızı, evimizi dolaşan ruh... Daşlarmı ağlayırdı? Daşlara hopan xatirələrmi ağlayırdı? Gözümdən axan sel kimi yaşlara qarışdı daşlardan axan yaş. Daşlardan soruşdum ürəyimdən keçənləri... Daşa döndülər, dillənmədilər. Ağladılar mənimlə birgə... Daşlarda nə qədər izlər gördüm, İlahi! Daşlara hopmuşdu uşaqlığım, gəncliyim, xatirələrim, keçmişim... Daşlar ağlayırdı. Çəkə bilmirdilər daha bu dərdi deyəsən. Soyuq, şaxtalı havada əllərimi elə isindirdi ki daşlar. Daşlar elə hərarətlə qarşıladılar ki, məni evimizdə. Elə haray çəkdim ki, onlar da dilə gəldi... Qopar, apar özünlə məndəki xatirələrini! Əşrəf atanın əlinin istisini, Tamella ananın isti nəfəsini qopar dedilər. Aygünün, Səbuhinin, Zülfiyyənin, Kənanın xoşbəxt günlərinin izlərini qopar apar dedilər... Daşlar dedilər bunu mənə. Harayıma dözməyib ağlayan daşlar. Daşlaşmış keçmişimə ağlayırdılar mənimlə birgə...

*Ağdam, 20.01.2021*
*Ömrümün daşlaşmış bir vərəqi...*

**Aybəniz RÜSTƏMOVA,**
*Bakı şəhəri 47 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*